# Beynəlxalq Enerji Agentliyinin qərargahında COP29-a həsr olunmuş tədbir keçirilib

Parisdə Beynəlxalq Enerji Agentliyinin (BEA) qərargahında BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına həsr olunmuş "COP29-BEA enerji keçidi yüksəksəviyyəli dialoq" adlı konfrans işə başlayıb.



AZƏRTAC xəbər verir ki, toplantıda müxtəlif ölkələrin aidiyyəti nazirləri, COP 26, 27, 28 və 29-un prezidentləri, beynəlxalq təşkilatların rəhbərləri, Fransada akkreditə olunmuş müxtəlif ölkələrin səfirləri iştirak edirlər. Konfransda Azərbaycanın ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən olunmuş prezidenti Muxtar Babayev, eləcə də digər nazirlər və COP prezidentləri çıxış edəcək, enerji keçidinə dair fikirlərini bölüşəcəklər.

Azərbaycan.- 2024.- 16 may, № 101.- S.8.